**Quluzadə S.M.**♦

**DOI: 10.25108/2304-1730-1749.iolr.2022.69.34-49**
**UOT: 347.6**

# Azərbaycan ailə qanunvericliyi üzrə valideynlərin və uşaqların aliment öhdəlikləri

**Xülasə**: Azərbaycan Respublikası Konstitusiyasında valideynlərin uşaqların qayğısına qalmaq, 18 yaşına çatmış əmək qabiliyyətli uşaqların əmək qabiliyyəti olmayan valideynlərini saxlamaq öhdəlikləri müəyyən edilmişdir. Bu konstitusion müddəalara uyğun olaraq Azərbaycan Respublikası Ailə Məcəlləsinin V bölməsi "Ailə üzvlərinin aliment öhdəlikləri"nə həsr olunmuşdur. Həmin bölmədə valideynlərin və uşaqların aliment öhdəlikləri (13-cü fəsil), ər-arvadın və keçmiş ər-arvadın aliment öhdəlikləri (14-cü fəsil), ailənin başqa üzvlərinin aliment öhdəlikləri (15-ci fəsil) kimi münasibətlər öz hüquqi tənzimlənməsini tapmışdır.

Bu məqalədə valideynlərin və uşaqların aliment öhdəlikləri nəzərdən keçiriləcəkdir. Bu növ aliment öhdəliklərinin yaranmasının fəlsəfi-etik əsası uşağın qanunla müəyyən edilən mənşəyi sayılır. Azərbaycan Respublikası Ailə Məcəlləsinin 43-cü maddəsində valideynlərin və uşaqların hüquq və vəzifələrinin uşağın mənşəyinin təsdiq olunmasına əsaslandığı göstərilmişdir. Ailə Məcəlləsində həmçinin uşağın həm anadan, həm də atadan mənşəyinin (analıq və atalıq) müəyyən edilməsinin əsasları öz əksini tapmışdır (44-cü maddə). Valideynlərin və uşaqların aliment öhdəliklərinin yaranma əsası uşaqların qanunla müəyyən olunmuş qaydada təsdiq edilən mənşəyi sayılır.

İlk olaraq "uşaq" və "valideyn" sözlərinin qanunvericilik anlayışlarının olub olmamasına diqqət yetirilmişdir. BMT Baş Məclisinin 44-cü sessiyasında qəbul edilmiş "Uşaq hüquqları haqqında Konvensiya"nın (20 noyabr 1989-cu il) 1-ci maddəsinə əsasən, hər bir insan 18 yaşına çatanadək uşaq sayılır, bir şərtlə ki, həmin uşaq barəsində tətbiq edilən qanuna görə o, yetkinlik yaşına daha əvvəl çatmış olmasın [11]. Azərbaycan Respublikasının nə Ailə, nə də Mülki Məcəlləsində uşağın və valideynin anlayışı verilməmişdir. Lakin MM-nin bir çox normalarının, xüsusən, 28-ci maddəsinin məzmunundan anlaşılır ki, 18 yaşınadək olan yetkinlik yaşına çatmayanlar məhdud fəaliyyət qabiliyyətli olmaqla, uşaq sayılırlar.

Valideynlərin uşaqları barədə hüquq və vəzifələri vəhdət təşkil etməlidir və bu vəhdət digər şəxslərin hüquq və vəzifələrinin vəhdətindən fərqlənir. Əgər hər hansı bir hüquq subyektinin hüquqları digərinin vəzifələri ilə, vəzifələri isə - hüquqları ilə qarşılıqlı vəhdət yaradırsa, valideynlərin hüquq və vəzifələri öz uşaqlarına münasibətdə elə vəhdət yaradır ki, valideynlərin hüquqları həm də onların vəzifələri, vəzifələri isə hüquqları kimi təzahür edir. Bu baxımdan valideynlərin hüquq və vəzifələri valideynlik hüququ adlanır və valideynlər öz valideynlik hüquqlarını həyata keçirməyə borcludurlar [7, s. 237-238].Valideynlik hüquqlarının lazımınca həyata keçirilməməsi onun üçün müvafiq məsuliyyət doğurur: valideynlik hüquqlarından məhrum etmə (Ailə Məcəlləsinin 64-cü maddəsi); valideynlik hüquqlarının məhdudlaşdırılması (Ailə Məcəlləsinin 68-ci maddəsi); uşaqların saxlanılması üçün məhkəmə qaydasında vəsaitin tutulması

♦ **Quluzadə Səmra Mübariz qızı –** Bakı Dövlət Universitetinin Mülki hüquq kafedrasının doktorantı (Azərbaycan). E-mail:syamraguluzade@outlook.com

(Ailə Məcəlləsinin 76-cı maddəsi). Yetkinlik yaşına çatmayan uşaqlarını, əmək qabiliyyəti olmayan yetkinlik yaşına çatmış övladlarını saxlamaq, onların xərcliklərini və gündəlik tələbatlarını ödəmək valideynlərin borcudur. Valideynlər bunu övladları arasında hər hansı bir fərq, ayrı-seçkilik qoymadan həyata keçirməlidirlər.

Azərbaycan Respublikası 1993-cü ildə BMT-nin "Uşaqların yaşaması, müdafiəsi və inkişafının təmin edilməsi haqqında" Ümumdünya Bəyannaməsinə qoşulmuşdur. Respublikamız tərəfindən 21 iyul 1992-ci il tarixdə ratifikasiya edilmiş BMT-nin "Uşaq hüquqları haqqında" Konvensiyasının 18-ci maddəsinin I bəndinə əsasən, iştirakçı dövlətlər uşağın tərbiyəsi və inkişafı üçün hər iki valideynin birgə və eyni dərəcədə məsuliyyət daşıdığına dair prinsipin tanınmasını təmin etməkdən ötrü mümkün olan bütün səyləri göstərirlər. Uşağın tərbiyəsi və inkişafı üçün əsas məsuliyyəti valideynləri və ya müvafiq hallarda qanuni qəyyumları daşıyır. Azərbaycan Respublikası Ailə Məcəlləsinin 12-ci fəslində valideynlərin hüquq və vəzifələri müəyyən edilmişdir. Valideynlərin uşaqları ilə bağlı hüquq və vəzifələri müxtəlif sferaları əhatə edir: 1) uşaqların tərbiyəsi və təhsili sahəsi; 2) uşaqların hüquq və mənafelərinin müdafiəsi sahəsi. Ailə qanunvericiliyində valideynlərin məsuliyyətinin aşağıdakı formaları nəzərdə tutulmuşdur: 1) valideynlik hüquqlarından məhrumetmə;2) valideynlik hüquqlarının məhdudlaşdırılması. Lakin qanunvericilik hətta valideynlik hüquqlarından məhrum edilmiş valideynləri uşaqların saxlanmasını təmin etmək vəzifəsindən azad etmir.

**Açar sözlər**: ailə; aliment; aliment öhdəliyi; valideynlər; uşaqlar; yetkinlik yaşına çatmış övladlar; əmək qabiliyyəti olmayan övladlar.

"Uşaq hüquqları haqqında" Azərbaycan Respublikasının Qanununun 19-cu maddəsinə əsasən, uşağın qabiliyyətinin inkişaf etdirilməsi, onun maddi və mənəvi tələbatlarının təmin edilməsi, hüquq və mənafelərinin mühafizəsi valideynlərin əsasvəzifəsidir. Lakin uşaqların yetkinlik yaşına çatması ilə valideynlərin onlara münasibətdə (əmək qabiliyyəti olmayan və maddi yardıma ehtiyacı olan yetkinlik yaşına çatmış övladlar istisna olmaqla) aliment öhdəlikləri də qüvvəsini itirir.

Valideynlərin aliment öhdəliklərinin mühüm məqamlarından biri onların hər birinin öz uşaqları barəsində bərabər hüquq və vəzifələrə malik olmasıdır. Bu müddəa Azərbaycan Respublikası Ailə Məcəlləsinin 56.1-ci maddəsində öz əksini tapmışdır. Ölkəmizin məhkəmə təcrübəsi göstərir ki, aliment ilə bağlı iddia tələbləri daha çox uşaqların anaları tərəfindən atalarına qarşı irəli sürülür. Lakin ayrı-ayrı hallarda atalar tərəfindən də eyni məzmunlu iddia tələblərinin analara qarşı verildiyinə rast gələ bilirik.

Nümunə gətirək. İddiaçı ata cavabdeh anaya qarşı aliment tələbinə dair məhkəməyə iddia ərizəsi ilə müraciət edib göstərmişdir ki, 28.02.2007-ci il tarixdə cavabdeh ilə rəsmi nikaha daxil olmuş, birgə nikahlarından 07.12.2007-ci il, 25.01.2010-cu il və 20.12.2011-ci il təvəllüdlü 3 uşağı doğulmuşdur. Cavabdeh ana ilə ailə münasibətləri normal olmamış, məhkəmənin 04.07.2016-cı il tarixli qətnaməsinə əsasən nikahları pozulmuş, azyaşlı uşaqlar ananın yanında deyil, onun yanında qalıb yaşayırlar. Cavabdeh ana ilə boşandığı tarixdən ana uşaqlara baxmamış, onların saxlanılmasına heç bir köməklik göstərməmişdir. Məktəbli olan uşaqların tələbatını təkbaşına ödəyə bilmədiyindən, cavabdehdən onların yetkinlik yaşlarına çatanadək saxlanılmaları üçün hər ay hər bir uşaq üçün 120 manat, cəmi isə 360 manat sabit pul məbləğində alimentin tutulması üzrə qətnamə qəbul edilməsini xahiş edir.

Birinci instansiya məhkəməsinin 4 dekabr 2019-cu il tarixli qətnaməsi ilə iddia tələbi qismən təmin edilmiş, cavabdehdən 05.11.2019-cu il tarixdən etibarən uşaqların yetkinlik yaşlarına çatana

kimi saxlanılmaları üçün hər bir uşaq üçün hər ay 80 manat, cəmi isə 240 manat sabit pul məbləğində alimentin tutulması qət edilmişdir. Apellyasiya Məhkəməsinin Mülki Kollegiyasının 21 may 2020-ci il tarixli qətnaməsi ilə birinci instansiya məhkəməsinin qətnaməsinin dəyişdirilmiş, azyaşlı uşaqların yetkinlik yaşlarına çatanadək saxlanılmaları üçün cavabdehdən hər bir uşağa görə ayda 60 manat olmaqla, cəmi 180 manat sabit pul məbləğində alimentin tutulması qət edilmişdir. Apellyasiya instansiyası məhkəməsi bu qərarı qəbul edərkən mövqeyini belə əsaslandırmışdır ki, uşaqların maddi-məişət tələbatının ödənilməsi, onların tərbiyə olunmasında və saxlanılmasında hər iki valideynin eyni hüquq və vəzifələrə malik olması barədə qanunvericilik aktların müddəaları, cavabdehin maddi imkannın aşağı olması onu iddiaçı ilə birgə nikahından doğulmuş M., N. və Z. adlı uşaqlarını saxlamaq, onların artan maddi-məişət tələbatının ödənilməsi üçün uşaqların digər valideyni olan iddiaçını aliment ödəmək vəzifəsindən azad edə, yaxud həmin vəzifənin yerinə yetirilməsinə mane olan hal kimi qiymətləndirilə bilməz. Lakin işin diqqətəlayiq halları, "Al Market"də müddətli əmək müqaviləsi üzrə işləməsi və aylıq qazancının 250-300 manat olması, eyni zamanda, iddiaçının əmək haqqısının 360 manat təşkil etməsi nəzərə alınmadan azyaşlı uşaqların ehtiyaclarının ödənilməsi üçün hər ay məhkəmə qətnaməsi ilə müəyyən edilmiş alimentin cavabdehdən hər ay bir uşaq üçün 80 manat olmaqla cəmi 240 manat sabit pul məbləğində tutulması işin faktiki hallarına uyğun hesab edilməmişdir [10].

Valideynlərin uşaqlarla bağlı hüquq və vəzifələri müddətsizdirmi? Xeyr, uşaqlarınyetkinlik yaşına çatması, yetkinlik yaşına çatmayan şəxslərin (uşaqların) nikah münasibətlərinə daxil olması, həmçinin qanunvericiliklə müəyyən edilmiş hallarda tam fəaliyyət qabiliyyəti əldə etmələri (emansipasiya) valideynlərin uşaqlar ilə bağlı müəyyən olunmuş hüquq və vəzifələrinin xitam olunmasına gətirib çıxarır. Bu halların baş verməsinədk uşaqlar yalnız hüquq daşıyıcıları olurlar, bunlardan sonra isə uşaqlar həmçinin vəzifə daşıyıcılarına çevrilirlər. Eyni zamanda, nəzərə almaq lazımdır ki, qanunvericilikdə valideynlərin əmək qabiliyyəti olmayan yetkinlik yaşına çatmış övladlarını da saxlamaq vəzifəsi müəyyən edilmişdir (Ailə Məcəlləsinin 80-ci maddəsi).

Azərbaycan Respublikası Konstitusiya Məhkəməsinin hüquqi mövqeyinə görə, aliment öhdəliyi ailə münasibətlərinin iştirakçısı olan ər-arvad, valideynlər və uşaqlar arasında yaranan elə hüquq münasibətləridir ki, burada bir tərəf digər tərəfin saxlanılması üçün onlar arasında olan razılıq əsasında və ya qanunvericiliyə uyğun olaraq məcburi qaydada müəyyən edilən vəsaiti ödəməyə borclu olur [20].Əmək qabiliyyəti olmayan uşaqların saxlanılması üçün valideynlərinin üzərinə aliment ödəmək vəzifəsi o zaman təyin olunur ki, məhkəmədə uşaqların əmək qabiliyyətinin olmadıqları və maddi yardıma ehtiyacları olmaları faktı təsdiq edilmiş olsun. Ehtiyacın olması o deməkdir ki, yetkinlik yaşına çatmış uşaq özünün müstəqil surətdə yaşayışını təmin edə bilmir, dövlət tərəfindən verilən pensiya və maddi yardım isə kifayət dərəcəsində deyildir. Yetkinlik yaşına çatmış əmək qabiliyyəti olmayan uşağın özünün yaşayışını təmin edə bilməməsi faktı məhkəmə tərəfindən müəyyən edilir [7, s. 276].

Azərbaycan Respublikası Konstitusiya Məhkəməsi Plenumunun "Azərbaycan Respublikası Ailə Məcəlləsinin 80 və 81-ci maddələrinin bəzi müddəalarının şərh edilməsinə dair" 27 yanvar 2015-ci il tarixli qərarında düzgün olaraq göstərilmişdir ki, valideynlərin əmək qabiliyyəti olmayan və maddi yardıma ehtiyacı olan yetkinlik yaşına çatmış övladlarını saxlamaq vəzifəsinin yaranması üçün aşağıdakı halların məcmuyu mövcud olmalıdır: yetkinlik yaşına çatmış övladın əmək qabiliyyətinin olmaması və onun maddi yardıma ehtiyacının olması. Bu iki halın ayrı-ayrılıqda möbvcudluğu valideyn üçün aliment ödəmək vəzifəsini istisna edir. Yetkinlik yaşına çatmış övladın təkcə əmək qabiliyyətinin olmaması valideyndən aliment almaq hüququ üçün əsas deyildir, eyni

zamanda, onun maddi yardıma ehtiyacı olması da tələb olunur. Yaxud, əksinə, övlad əmək qabiliyyətlidirsə, onun maddi yardıma ehtiyacının olması valideynlərdən aliment tələb etməyə əsas vermir [6].

Valideynin heç bir yerdə işləməməsi və ya hər hansı bir qazanca malik olmaması onu uşağı saxlamaq və maddi təminatını ödəmək vəzifəsindən azad etmir [5]. Eyni zamanda, sual yarana bilər ki, valideynin yetkinlik yaşına çatan və fəaliyyət qabiliyyəti olmayan övladına münasibətdə aliment ödəməli olması bütün hallarda onun borcu sayılırmı? Sualın cavabı Ailə Məcəlləsinin 112.2-ci maddəsində müəyyən edilmişdir. Belə ki, yetkinlik yaşına çatan və fəaliyyət qabiliyyəti olmayan şəxs aliment ödəməli olan şəxs olaraq valideynə qarşı qəsdən cinayət törətdikdə və ya ailədə nalayiq davrandıqda, məhkəmənin həmin şəxs üçün aliment tutulması barədə tələbi rədd etmək ixtiyarı vardır. Aliment almaq hüququ olan şəxsin, bu hüququnun yarandığı vaxtdan asılı olmayaraq, istənilən müddətdə məhkəməyə aliment tutulması barədə ərizə ilə müraciət etmək hüququ vardır. Məsələn, tərəflər 15 noyabr 2015-cü il tarixdə nikaha daxil olmuş, birgə nikahdan bir uşaqları olmuşdur. Məhkəmənin 25 sentyabr 2020-ci il tarixli qətnaməsi ilə tərəflər arasında nikah pozulmuş, uşağın ananın yanında saxlanılması müəyyən edilmişdir. 2021-ci ilin iyul ayında ana iddia ərizəsi ilə məhkəməyə müraciət edərək uşağın saxlanılmasında cavabdehin ona heç bir maddi yardım göstərmədiyini və cavabdehdən uşağın saxlanılması üçün onun xeyrinə hər ay əmək haqqısının 1/4 hissəsi miqdarında aliment tutulmasını xahiş etmişdir.

Nəzərə almaq lazımdır ki, ailə qanunvericiliyinə görə aliment məhkəməyə müraciət edildiyi vaxtdan tutulur (Ailə Məcəlləsinin 100.2-ci maddəsi). Lakin bu məsələ üzrə məhkəmə təcrübəsində vahid mövqeyin olmadığına, bəzən isə yuxarı instansiya məhkəməsi səviyyəsində hüquq normasının düzgün tətbiq edilmədiyinə rast gəlinir. Misal gətirək. 2015-ci ilin fevral ayında iddiaçı ərizə ilə məhkəməyə müraciət edərək, cavabdehə qarşı ailə münasibətlərinin pozulması nəticəsində baş vermiş mübahisələrə görə müəyyən tələblər ilə yanaşı, 2014-cü ilin iyul ayından başlayaraq ödənilməmiş alimentə görə 50.000 manatın ödənilməsinə dair qətnamə qəbul edilməsini xahiş etmişdir. İş üzrə bir neçə məhkəmə qərarı qəbul edilmişdir. Bakı Apellyasiya Məhkəməsi Mülki Kollegiyasının 1 dekabr 2020-ci il tarixli qətnaməsi ilə cavabdehdən 28 oktyabr 2020-ci il tarixdən hesablanmaqla hər uşaq üçün 170 manat olmaqla, cəmi 340 manat sabit pul məbləğində alimentin iddiaçı xeyrinə tutulması qət olunmuşdur. İddiaçı bu qətnamədən kassasiya şikayəti verərək, onun dəyişdirilib alimentin hesablanma vaxtının 13 fevral 2015-ci il tarixdən müəyyən olunmaqla tutulmasını xahiş etmişdir.

Kassasiya məhkəməsi Azərbaycan Respublikası Ailə Məcəlləsinin 100.2-ci maddəsinə istinad edib, iddiaçının cavabdehə qarşı alimentin tutulması barədə tələblə məhkəməyə 13 fevral 2015-ci il tarixdə müraciət etdiyini göstərsə də, kassasiya şikayətinin təmin olunmaması, apellyasiya instansiyası məhkəməsinin qətnaməsinin dəyişdirilmədən saxlanılmasına dair qərar qəbul etmişdir. Apellyasiya məhkəməsi alimentin tutulmasına başlama vaxtının uşaqların valideynlərdən hansının yanında saxlanılması barədə mübahisəyə son qoyulduğu vaxtdan, yəni həmin iş üzrə qəbul edilmiş qətnamənin Azərbaycan Respublikası Ali Məhkəməsi Mülki Kollegiyasının 28 oktyabr 2020-ci il tarixdə dəyişdirilmədən saxlanıldığı vaxtdan müəyyən etmişdir. Ali Məhkəmənin mövqeyinə görə, iddiaçının uşaqlara görə aliment tələb etmək hüququ faktiki olaraq uşaqlar barədə mübahisəyə son qoyulduğu vaxtdan yarandığından, alimentin 28 oktyabr 2020-ci ildən tutulması barədə apellyasiya instansiyası məhkəməsinin nəticəsi Ailə Məcəlləsinin 100.2-ci maddəsinin tələbinin pozulması kimi qiymətləndirilməməli, apellyasiya instansiyası məhkəməsinin həmin nəticəsi ədalətli və işin müəyyən olunmuş hallarına uyğun sayılmalıdır [4].

Halbuki, Azərbaycan Respublikası Ali Məhkəməsinin Plenumunun "Nikahın pozulması, boşanmadan sonra yetkinlik yaşına çatmayan uşaqların valideynlərdən hansının yanında qalması və uşaqlar üçün valideynlərdən aliment tutulması tələbinə dair işlərə baxılarkən qanunvericiliyin məhkəmələr tərəfindən tətbiqi təcrübəsi haqqında" 28 mart 2016-cı il tarixli 8-2/2016 № li Qərarının 8.11-ci maddəsində Ailə Məcəlləsinin 100.2-ci maddəsininin tələblərinə əməl olunmasının zəruriliyi birbaşa vurğulanmış və *izah edilmişdir ki, yuxarı instansiya məhkəmələri tərəfindən aliment tutulması barədə qətnamənin ləğv olunması, aliment tələbinin rədd edilməsi, yaxud tutulan alimentin miqdarının azaldılması həmin dəyişikliyi nəzərdə tutan məhkəmə aktı qanuni qüvvəyə minənədək ödənilmiş aliment məbləğinin qaytarılmasına əsas vermir (səbəb olmur)*. Bu müddəa əslində dolayısı ilə Ailə Məcəlləsinin 100.2-ci maddəsini tətbiq etməyə əlavə imkan verir. Lakin təəssüf ki, Ali Məhkəmə apellyasiya məhkəməsinin yol verdiyi səhvi təkrar edərək, alimentin məhkəməyə müraciət edildiyi vaxtdan deyil, məhkəmə mübahisəsinə son qoyulduğu tarixdən tutulmasına dair qərar qəbul etmişdir.

Məlum olduğu kimi, uşaqların iki nəfərdən (ata və ana) artıq qanuni nümayəndəsi ola bilməz. Valideynlərin heç biri statusundan, yaşından, cinsindən, məşğuliyyətindən, yaşayış yerindən və s. hallardan asılı olmayaraq, uşaqlarına münasibətdə üstün mövqeyə malik deyildir. Valideynlər uşaqlarının yalnız ailə qanunvericiliyi ilə deyil, həmçinin mülki, inzibati və digər qanunvericiliklər ilə müəyyən edilmiş hüquq və mənafelərini müdafiə etməyə borcludurlar. Valideyn hüquqları hər iki valideyn tərəfindən şaqların mənafeyinə həyata keçirilməlidir. Uşaqların tərbiyəsi və təhsili ilə bağlı bütün məsələlər valideynlər tərəfindən qarşılıqlı razılıq və uşaqların maraqları və fikirləri nəzərə alınmaqla həll edilir. Valideynlər arasında fikir ayrılığı mövcud olduqda onun həlli üçün qəyyumluq və himayəçilik orqanına və ya məhkəməyə müraciət edilə bilər.

Ailə qanunvericiliyində valideynlər üçün nəzərdə tutulan vəzifələrdən biri onların uşaqlarını saxlamaq vəzifəsidir. Valideynlər, eyni zamanda, uşaqlara görə zəruri olan əlavə xərclərdə iştiraka cəlb oluna bilər. Valideynlərin əlavə xərclərə cəlb olunması qaydası məhkəmə tərəfindən müəyyən edilir. Bu zaman xərclərin miqdarı, valideynlərin və uşaqların ailə və maddi vəziyyəti, diqqətəlayiq olan digər maraqları nəzərə alınmaqla, hər ay ödənilməli olan sabit pul məbləğində müəyyən olunur. Tərəflərin birgə nikahından bir uşaqları olmuş, boşanmadan sonra uşaq ananın himayəsinə verilmiş və cavabdehdən uşağın saxlanılması üçün gəlirlərinin ¼ hissəsi miqdarında aliment tutulmuşdur. 2019-cu ilin iyun ayında iddiaçı ərizə ilə məhkəməyə müraciət edərək, cavabdehdən onun xeyrinə birgə nikahdan doğulan uşağın müalicə xərci üçün hər ay 250 manat məbləğində sabit pul vəsaitinin tutulmasına dair qətnamə çıxarılmasını xahiş etmişdir. Uşağın "anemiya" diaqnozu ilə Bərdə uşaq poliklinikasında qeydiyyatda olması müəyyən edilmişdir. Birinci instansiya məhkəməsində iddiaçının iddiası qismən təmin edilmiş, uşaq müayinə və müalicəsi ilə əlaqədar hər ay 100 manat pulun cavabdehdən tutulub iddiaçıya verilməsi qət edilmişdir. Apellyasiya Məhkəməsi qətnaməni "hər ay 100 manat" hissəsində dəyişdirmiş, həmin hissədə uşaq sagalanadək cavabdehdən tutulmalı olan əlavə xərcin miqdarı 50 manat miqdarında müəyyən edilmişdir [8].

Ü.M.H.-nin E.R.M. ilə birgə nikahından 21 oktyabr 2003-cü ildə R. adlı uşağı dünyaya gəlmişdir. 26 sentyabr 2006-cı ildə onların nikahları pozulmuşdur. R. anadangəlmə xəstə olub, qıc olmalardan əziyyət çəkmişdir. O, "ensefalopatiya perinatal hipoksik- astenik hipertenzion, hidrosefal, psixi-fiziki inkişafdan geriqalma, sinir-reflektor oynaqlıq sindromu, qicqolma tutmaları" diaqnozu ilə xəstə olmaqla dispanser qeydiyyatına götürülmüşdür. Rayon məhkəməsinin 13 dekabr 2006-cı il tarixli əmri ilə E.R.M.-dən aylıq gəlirinin 25%-i miqdarında aliment tutulmuşdur. İddiaçı məhkəmədən R.-nin müalicəsinə çəkdiyi 3840 manat məbləğində xərcin və ayda 100 manat

məbləğində müalicə xərclərinin E.R.M. tərəfindən ödənilməsi barədə qətnamə qəbul edilməsini xahiş etmişdir. Rayon məhkəməsinin 18 aprel 2009-cu il tarixli qətnaməsi ilə iddiaçının uşağının müalicəsi üçün çəkdiyi və zəruri olan xərclərin ödənilməsi barədə iddiası qismən təmin edilmiş, uşağının müalicəsi üçün çəkdiyi 2000 manat məbləğində xərcin və ayda 100 manat məbləğində müalicə məsrəflərinin E.R.M.-dən alınıb ona verilməsi qət olunmuşdur. Apellyasiya və kassasiya məhkəməsi həmin qətnaməni dəyişdirilmədən öz qüvvəsində saxlamışdır [1].

Bəhs edilən münasibətlər sferası dispozitiv məzmuna malik olduğundan, valideynlər uşaqlarını saxlamağın qayda və formasını özləri müstəqil şəkildə müəyyən edirlər. Onlar həmçinin yetkinlik yaşına çatmayan uşaqlarını saxlamaq barədə saziş (aliment ödənilməsi barədə saziş) bağlamaq hüququna malikdirlər. Ölkəmizin təcrübəsində nə qədər az sayda olmasından asılı olmayaraq bu hüquqi mexanizmin (sazişin) qanunvericilikdə nəzərdə tutulmasını təqdir edirik. Belə ki, aliment sazişi birbaşa maraqlı tərəflər olan alimenti ödəməli olan subyekt ilə onu almalı olan subyekt və ya onun nümayəndəsi arasında bağlanır, tərəflər könüllü surərdə özlərinin imkanlarını və istəklərini nəzərə alaraq onun predmetini, həcmini müəyyən edirlər ki, bu da onun əksər hallarda reallığını təmin etmiş olur. Digər tərəfdən, aliment sazişində alimentin ödənilməsinin müxtəlif üsullarının nəzərdə tutulmasının mümkünlüyü, müəyyən edilən alimentin miqdarının məhkəmə qaydasında müəyyən edilə bilən alimentin miqdarından az olmaması, indeksasiya oluna bilinməsi, tərəflərin maddi və ailə vəziyyətində ciddi dəyişikliklərin baş verdiyi hallarda sazişə dəyişikliklər edilməsinin mümkünlüyü, aliment alanın maraqlarının pozulduqda aliment ödənilməsi barədə sazişin etibarsız sayılması və s. hallar onu bütün hallarda alimenti alan tərəf üçün sərfəli edir. Bu, həm də valideynlərin bir-birindən ayrılmasına (boşanmasına) baxmayaraq, ailə üzvləri olmuş şəxslər arasında qarşılıqlı hörmətin qorunub saxlanılmasına, habelə ər-arvadın birgə nikahından doğulmuş uşaqların düzgün tərbiyə olunmasına, psixi inkişaflarına, boşanma və məhkəmə mübahisələri ilə bağlı valideynlər arasında yaranan müxtəlif qalmaqallar və s. neqativ hallardan onların az əziyət çəkmələrinə kömək edir.

Ailə Məcəlləsinin 16-cı fəslində alimentin ödənilməsi barədə sazişə dair müddəalar öz əksini tapmışdır. Həmin normalara əsasən, aliment sazişi tərəflər arasında yazılı şəkildə bağlanır. Notariat qaydada təsdiq olunduğundan icra vərəqəsi qüvvəsinə malik olan bu sazişin formasına riayət olunmaması Mülki Məcəllə ilə müəyyən edilən hüquqi nəticələri doğurur. Ümumiyyətlə, aliment sazişi üzrə mülki hüquqi əqdlərə münasibətdə Azərbaycan Respublikasının MM-də müəyyən edilmiş normaların müddəaları tətbiq olunur. Bu baxımdan sazişin müddəaları, tərəflərin razılığı mövcud olduqda, istənilən vaxt dəyişdirilə və ya pozula bilər. Eyni zamanda, sazişin müddəalarını birtərəfli qaydada icra etməkdən imtina etmək və ya şərtlərini dəyişdirmək yolverilməz sayılır.

Qeyd edilənlərə əsasən hesab edirik ki, alimentin ödənilməsinə dair saziş mülki hüquq müqaviləsi səciyyəsini daşıyır və aşağıdakı əlamətlərə malikdir:

- əvəzsiz müqavilədir: bir tərəf qarşılıq almadan digər tərəfə nəyisə təmin etməyi öhdəsinə götürür. Nəzərə almaq lazımdır ki, əvəzsiz öhdəliklərə aid olan aliment öhdəliyi münasibətlərinin özü şəxsi səciyyə daşıyır. Bu huquqa malik olan şəxs onu digər şəxsin xeyrinə güzəşt edə bilməz, qarşılıqlı tələb və ya kompensasiya ödənilməsi üçün istifadə oluna bilməz;
- birtərəfli müqavilədir: bir tərəf aliment ödəmək məsuliyyətini daşıyır, qarşı tərəf isə onun icrasını (alimentin ödənilməsini) tələb etmək hüququna malikdir;
- konsensual müqavilədir: qanunla müəyyən edilmiş formada razılaşma əldə edildiyi andan bağlanmış sayılır və həmin andan hüquq və vəzifələr yaranır.

Valideynlərin öz uşaqlarını saxlamaq vəzifəsi uşaqların buna ehtiyacının və ya valideynlərin buna imkanının olub-olmamasından asılı deyildir. Uşağın (övladın) öz valideynini saxlamaq borcu onun bu imkana malik olması ilə bağlıdırsa, valideynin bu vəzifəsi valideynlərin fəaliyyət qabiliyyətli, əmək qabiliyyətli olub-olmamasından, habelə uşaqların valideynlərinin köməyinə ehtiyac duyub-duymamasından asılı deyildir. Ona görə qanunda aliment öhdəliyinin əmələ gəlməsi (valideynlərin uşaqlarına münasibətdə aliment ödəmək vəzifəsinin yaranması) üçün iki amilin mövcud olması əsas sayılır: a) qanunla müəyyən olunmuş qaydada uşaqla valideynlər arasında qohumluq əlaqəsinin olması; b) uşağın yetkinlik yaşına çatmaması [7, s. 270].

Bəzən təcrübədə mübahisə tərəfləri alimentin ödənilməsi barədə saziş ilə barışıq sazişini bir-biri ilə qarışdırır. Nümunə gətirək. Birinci instansiya məhkəməsinin qətnaməsi ilə tərəflərin nikahı pozulmuş, iki uşaq üçün iddiaçı anaya cavabdeh ər tərəfindən hər ay qazancının 1/3 hissəsi miqdarında aliment tutulması qət olunmuşdur. Bir müddətdən sonra iddiaçı cavabdehə qarşı yeni iddia ərizəsi ilə məhkəməyə müraciət edərək, onun biznes fəaliyyəti ilə məşğul olmaqla, daha artıq qazanca malik olmasını və s. halları əsas gətirərək, alimentin miqdarının artırılmasını xahiş etmişdir. Məhkəmə tərəfindən iddia qismən təmin edilərək, alimentin miqdarının artırılması, cavabdehin qazancının 1/3 hissəsi və hər uşaq üçün 1000 manat sabit pul məbləğində alimentin, eləcə də, 03 iyul 2019-cu il təvəllüdlü uşağın 3 yaşına çatana kimi saxlanılması üçün hər ay sabit pul məbləğində 300 manat məbləğində alimentin tutulub iddiaçıya ödənilməsi qət edilmişdir. Cavabdeh həmin qətnamədən apellyasiya şikayəti verərək təsisçisi olduğu müəssisələrin fəaliyyət göstərmədiyini, onlardan gəlir əldə etməməsini və alimentin miqdarının artırılması üçün əsasların olmamasını göstərməklə qətnamənin ləğv edilməsini və iddianın rədd olunmasını xahiş etmişdir.

Apellyasiya Məhkəməsi birinci instansiya məhkəməsinin qətnaməsini dəyişdirməyərək qüvvəsində saxlamışdır. Cavabdehin vəkili kassasiya şikayəti verərək qətnamənin ləğv edilməsini və tərəflər arasında bağlanmış 26 noyabr 2020-ci il tarixli barışıq sazişinin təsdiq olunmasını xahiş etmişdir. Barışıq sazişinə əsasən, cavabdeh üzərinə hər uşaq üçün ayda 1000 manat məbləğində aliment ödəməyi, iddiaçı isə bunun müqabilində alimentin miqdarının artırılması tələbindən imtina etməsini götürmüşdür. Sazişdə həmçinin iddiaçının yaşayış sahəsindən istifadə hüququna dair məhkəmənin icraatında olan iddia tələbindən imtina etməsi, bunun müqabilində cavabdeh tərəfindən ona 10.000 manat məbləğində kompensasiyanın ödənilməsi, uşaqla ünsiyyət hüququnu, öhdəliyi pozan tərəfin digər tərəfdən 50.000 manat məbləğində təzminat tələb etməsini tənzimləyən razılaşmalar və s. nəzərdə tutulmuşdur. Kassasiya məhkəməsi tərəfindən barışıq sazişində mübahisənin predmeti olmayan digər məsələlərin razılaşma yolu ilə həlli, o cümlədən barışıq sazişinin mənasına və məqsədlərinə zidd olan müddəaların nəzərdə tutulduğu əsas götürülərək, onun yalnız aliment mübahisəsi üzrə qərar qəbul etmək hüququ olan məhkəmə tərəfindən təsdiq olunması qeyri-mümkün hesab edilmiş və apelyasiya məhkəməsinin qərarı dəyişdirilməyərək qüvvəsində saxlanılmışdır [3].

Alimentin ödənilməsi üzrə müqavilənin (sazişin) subyektləri (tərəfləri) aşağıdakılar sayılır: ödəməyə borclu olan şəxs aliment (şərti olaraq - aliment ödəyicisi) və aliment almaq hüququ olan şəxs (şərti olaraq - aliment alan). Aliment ödəyicisi tərəfində valideynlər (yetkinlik yaşına çatmayan uşaqlarına və yetkinlik yaşına çatmış, lakin əmək qabiliyyəti olmayan uşaqlarına münasibətdə), yetkinlik yaşına çatmış uşaqlar (əmək qabiliyyəti olmayan valideynlərinə münasibətdə) çıxış edir. Aliment alanın tərəfində yetkinlik yaşına çatmayan uşaqlar, yetkinlik yaşına çatmış və əmək qabiliyyəti olmayan uşaqlar, habelə ailə qanunvericiliyində müəyyən olunmuş digər şəxslər çıxış edə bilər. Bu şəxslərin yaşının, fəaliyyət qabiliyyətinə malik olmamasının və ya məhdud dərəcədə

fəaliyyət qabiliyyətinə malik olmasının heç bir hüquqi əhəmiyyəti yoxdur. Başqa sözlə, alimentin ödənilməsinə dair saziş bağlamaq imkanı aliment ödəməyə borclu olan şəxsin yaşından, habelə onun fəaliyyət qabiliyyətinə malik olub-olmamasından asılı deyildir.

Bu yerdə Azərbaycan Respublikası Ailə Məcəlləsinin 94.1-ci maddəsində yol verilmiş bir dəqiqsizliyi diqqətə çatdırmaq istəyirəm. Həmin maddəyə əsasən, aliment ödənilməsi barədə saziş aliment ödəməli olan şəxslə onu alan şəxs arasında bağlanır. Bu, həqiqətən belədir və heç bir mübahisə doğurmur. Lakin maddədə elə həmin cümlənin davamı olaraq göstərilir ki, aliment ödəməli olan və (və ya) onu alan şəxs fəaliyyət qabiliyyəti olmayan şəxs olduqda aliment sazişi həmin şəxslərin qanuni nümayəndələri arasında bağlanır. Hesab edirik ki, burada yanlışlığa yol verilmişdir. Belə ki, aliment sazişində tərəflər bütün hallarda aliment ödəməli olan şəxslə onu alan şəxs sayılır. Uşaqların hüquq və mənafelərini müdafiə etməli olan valideynlər, o cümlədən övladlığa götürənlər və qəyyumlar qanuni nümayəndə sayılır. Qanuni nümayəndələr təmsil olunan şəxsin adından və onun mənafeyindən çıxış edirlər. Onlar yalnız nümayəndələrdir və müqavilənin tərəfləri alimenti ödəyən və alimenti alan sayılır. Aliment ödəyicisinin nümayəndəsi olmaq onu aliment ödəməyə borclu olan şəxsə çevirmir. Eləcə də, aliment alanın nümayəndəsi olmaq aliment almaq hüququna malik olan şəxs olmaq deyildir. Bir sözlə, təmsilçilik şəxsi müqavilənin tərəfinə çevirmir.Azərbaycan Respublikası Mülki Məcəlləsinin 29.2-ci maddəsində düzgün olaraq göstərilmişdir ki, 14 yaşı tamam olmamış yetkinlik yaşına çatmayanların əvəzinə əqdləri onların adından qanuni nümayəndələri (valideynlər, övladlığa götürənlər və ya qəyyumlar) bağlaya bilərlər. Bu baxımdan hesab edirik ki, Ailə Məcəlləsinin 94.1-ci maddəsinin birinci cümləsinin aşağıdakı redaksiyada verilməsi məqsədəmüvafiqdir: "Aliment ödənilməsi barədə saziş (alimentin miqdarı, ödənilmə qaydası və şərtləri) aliment ödəməli olan şəxslə onu alan şəxs arasında, aliment ödəməli olan və (və ya) onu alan şəxs fəaliyyət qabiliyyəti olmayan şəxs olduqda isə həmin şəxslərin əvəzinə onların qanuni nümayəndələri arasında bağlanır."

Azərbaycan Respublikası ailə qanunvericiliyi alimentin ödənilməsinin iki usulunu müəyyən edir:

- könüllü üsul (alimentin ödənilməsi barədə saziş);
- məcburi üsul (məhkəmə qərarı əsasında alimentin tutulması).

Valideynlər uşaqlarını saxlamadıqda uşaqların saxlanması üçün vəsait (aliment) valideynlərdən məhkəmə qaydasında tutulur.

Ailə Məcəlləsinin 76-cı maddəsində uşaqlar üçün məhkəmə qaydasında tutulan alimentin miqdarı aşağıdakı kimi müəyyən edilmişdir:

1) 1 uşağa görə - qazancın və (və ya) valideynlərin başqa gəlirlərinin dörddə bir hissəsi;

2) 2 uşağa görə - qazancın (başqa gəlirlərin) üçdə bir hissəsi;

3) 3 və daha çox uşağa görə - qazancın (başqa gəlirlərin) yarısı.

Məhkəmə tərəfindən tərəflərin ailə və maddi vəziyyəti, eləcə də diqqətəlayiq olan başqa hallar nəzərə alınmaqla, bu payların miqdarı azaldıla və artırıla bilər.

M.Dəmirçiyeva qanunvericiliyin müddəaları əsasında uşaqların saxlanılması üçün alimentin sabit pul məbləğində tutulmasının aşağıdakı hallarını ayırmışdır:

1) valideynlər arasında yetkinlik yaşına çatmayan uşaqlara alimentin ödənilməsi barədə sazişin olmaması;

2) aliment verməyə borclu olan valideynin qazancının (gəlirinin) qeyri-müntəzəm, dəyişən olması;

3) valideynin qazancının (gəlirinin) hamısını və ya bir hissəsini natura və ya xarici valyuta ilə alması;

4) valideynin qazancının və ya sair gəlirinin olmaması;

5) alimentin valideynin qazancından (gəlirindən) müəyyən hissə şəklində tutulmasının mümkün olmaması və ya çətinlik törətməsi, yaxud tərəflərdən birinin marağının əhəmiyyətli dərəcədə pozulduğu digər hallarda [7, s. 273].

Məhkəmə təcrübəsində ən çox şikayət və müzakirə predmeti olan mövzulardan biri tərəflərin ailə və maddi vəziyyətinin, habelə diqqətəlayiq olan başqa halların qiymətləndirilməsi üzrə yaranan çətinliklər ilə bağlıdır. Ədəbiyyatda düzgün olaraq göstərilmişdir ki, maddi vəziyyətin müəyyən edilməsi zamanı məhkəmə ailənin gəlirinin bütün mənbələrini nəzərə almalıdır. Ailə vəziyyəti müəyyən edilərkən tərəflərin himayəsində olan şəxslərin və qanunla öhdəliyə götürülənlərin olması nəzərə alınmalıdır. Diqqətəlayiq halların müəyyən edilməsi zamanı isə tərəflərin ailələrində əmək qabiliyyəti olmayan valideynlərin, ağır xəstə, şikəst uşaqların olması və s. hallar məhkəmənin diqqətindən qaçmamalıdır [7, s. 276].

Ümumiyyətlə, Ailə Məcəlləsinin 80.2-ci maddəsində istifadə olunmuş “tərəflərin ailə və maddi vəziyyəti, diqqətəlayiq olan digər maraqları”, yaxud 81-ci maddəsində istifadə olunmuş “əlavə xərclər” ifadələrinin qiymətləndirici kateqoriyalar olaraq müxtəlif məzmunda təfsiri mümkündür. Bu baxımdan Azərbaycan Resublikası Ali Məhkəməsinin Plenumu tərəfindən həmin müddəaların izahının verilməsi məqsədəuyğun olardı. Bu, həm də milli məhkəmə təcrübəsinin bu sahədə düzgün istiqamət üzrə inkişafına kömək etmiş olardı. Lakin təəssüf ki, Azərbaycan Respublikası Ali Məhkəməsi Plenumunun “Nikahın pozulması, boşanmadan sonra yetkinlik yaşına çatmayan uşaqların valideynlərdən hansının yanında qalması və uşaqlar üçün valideynlərdən aliment tutulması tələbinə dair işlərə baxılarkən qanunvericiliyin məhkəmələr tərəfindən tətbiqi təcrübəsi haqqında” 28 mart 2016-cı il tarixli 8-2/2016 № li Qərarda bu məsələlərə ya ümumiyyətlə izah verilməmiş, ya da çox səthi izah verilmişdir. Məsələn, qərarda tərəflərin “diqqətəlayiq olan maraqları”, “maddi vəziyyəti” kimi ifadələrin izahı verilməmiş, əlavə xərclərə nümunə kimi isə yalnız kredit borcunun olması, kirayə haqqı ödəməsi kimi çox səthi izah verilmişdir. Bu baxımdan qeyd olunan Plenum Qərarında həmin ifadələlərin, habelə Ailə Məcəlləsində aliment öhdəliyi münasibətlərini nizama salan normalarda mövcud olan digər qiymətləndirici kateqoriyaların izahının tapmasını məqsədəmüvafiq hesab edirik.

P.Ə.R. E.S.R. qarşı iddia qaldırıb, 1 aprel 2001-ci ildə anadan olmuş oğlu R.E.Rəhimlinin saxlanılması üçün ondan sabit məbləğdə - ayda 100 manat məbləğində, əvvəlki 3 il nəzərə alınmaqla, aliment tutulmasını xahiş etmişdir. Belə ki, P.Ə.R. 22 noyabr 2000-ci il tarixdə E.S.R. ilə nikah bağlayıb ailə qurmuşdur. 1 aprel 2001-ci ildə onların Rza adlı uşağı doğulmuşdur. Məhkəmənin 1 mart 2003-cü il tarixli qətnaməsi ilə onların nikahları pozulmuşdur. Bundan sonra uşaq ananın yanında qalmış, cavabdeh uşağın saxlanılması üçün anaya kömək etməmişdir.Bakı şəhəri Xətai rayon məhkəməsinin 9 iyul 2009-cu il tarixli qətnaməsi ilə iddiaçı R.P.Ə. qızının cavabdeh R.E.S. oğluna qarşı alimentin sabit məbləğdə tutulması barədə iddiası qismən təmin edilmiş, E.S.R. R.R.E. oğlunun saxlanılması üçün ayda 100 manat məbləğində alimentin tutulması qət olunmuşdur. Bakı Apellyasiya Məhkəməsinin Mülki Kollegiyasının 16 sentyabr 2009-cu il tarixli qətnaməsi ilə Xətai rayon məhkəməsinin qətnaməsi dəyişdirilib, cavabdeh E.S.R. oğlu R. saxlanılması üçün iddiaçı P.Ə.R. xeyrinə 18 iyun 2009-cu il tarixdən başlayaraq aylıq qazancının ¼hissəsi və sabit məbləğdə ayda 40 manat məbləğində alimentin tutulması qət edilmişdir.

İddiaçı P.Ə.R. Bakı Apellyasiya Məhkəməsinin qətnaməsindən kassasiya şikayəti verərək, Bakı Apellyasiya Məhkəməsi MİÜK-nın qətnaməsinin ləğv edilməsini xahiş etmişdir. O, kassasiya şikayətində əsas kimi məhz Ailə Məcəlləsinin 78.2-ci maddəsinin tələblərinin pozulmasını göstərmiş, ölkədə 2009-cü il üçün uşaqların yaşayış minimumu 69 manat müəyyən edildiyini vurğulayaraq, apellyasiya məhkəməsinin həmin məbləği nəzərə almadan onun xeyrinə bundan az miqdarda aliment tutduğunu qeyd etmişdir. Cavabdeh E.S.R. və vəkili S.Y.H. kassasiya şikayətinin dəlillərini əsassız hesab edib rədd edilməsini xahiş etmiş və göstərmişdir ki, musiqi məktəbində ayda 123 manat maaşla müəllim işləyir. Onun başqa nikahdan da 2 uşağı vardır. Bu səbəbdən P.Ə.R. tələb etdiyi məbləğdə ondan alimentin tutulması ailəsinin dolanışına pis təsir edəcəkdir.

Kassasiya məhkəməsinin mövqeyinə görə (9 fevral 2010-cu il), cavabdeh E.S.R. ilə iddiaçı P.Ə.R. arasında 22 noyabr 2000-ci il tarixdə bağlanmış nikah Bakı şəhəri Xətai rayon Məhkəməsinin qətnaməsi ilə 01 mart 2004-cü il tarixdə pozulmuş, 01 aprel 2001-ci il tarixdə anadan olmuş R. anası R.P.Ə. qızının yanında qalması qət olunmuşdur. 2002-ci ildən Bakı şəhəri 32 saylı Uşaq Musiqi Məktəbində müəllim işləyən E.S.Rəhimlinin aylıq maaşı 123 manatdır. Üstəlik, G.V.K. ilə 24 dekabr 2005-ci il tarixdə yeni nikaha daxil olan E.S.R.-nin bu nikahdan iki uşağı vardır. Bakı Apellyasiya Məhkəməsi Nəsimi rayon məhkəməsinin qətnaməsini dəyişib, cavabdeh E.S.R. iddiaçı P.Ə.R. xeyrinə onların bir uşaqlarnın saxlanılması üçün iddiaçının məhkəməyə müraciət etdiyi vaxtdan başlayaraq aylıq qazancının ¼hissəsi miqdarında, həm də sabit məbləğdə ayda 40 manat məbləğində aliment tutmuşdur. Məhkəmə Kolleqiyası hesab edir ki, Bakı Apellyasiya Məhkəməsinin MİÜK-sı aliment miqdarını təyin edərkən tərəflərin maddi və əmlak vəziyyətlərini nəzərə alıb, qanuni və əsaslı qətnamə qəbul etmişdir. İddiaçı P.Ə.R. kassasiya şikayətinin aliment məbləği təyin edilərkən uşaqlar üçün müəyyən edilmiş dolanış minimumunun nəzərə alınmaması, uşağın əvvəlki təminatının maksimal həddə saxlanılmaması dəlilləri isə əsaslı hesab edilməmişdir. Ona görə də iddiaçı R.P.Ə. qızının kassasiya şikayəti təmin edilməmişdir [2].

Ailə Məcəlləsinin 17-ci fəslində alimentin ödənilməsi və tutulması qaydası məsələləri öz əksini tapmışdır. Fikrimizcə, bu məsələ aşağıda göstərilən bir sıra səbəblərdən aliment mübahisələrinin həllində mühüm yer tutur:

1) almentin ödənilməsi üzrə məhkəmələr tərəfindən qəbul olunmuş qərarların müəyyən hissəsinin icra olunmaması;

2) Tərəflərin maddi və s. durumlarında baş vermiş dəyişikliklər səbəbindən alimentin ödənilməsi üzrə çıxarılmış məhkəmə qərarlarına yenidən baxılmasının mümkün olması;

3) alimentin ödənilməsi və tutulması mərhələsində pozuntu hallarına yol verilməsi;

4) qanunvericilikdə alimentin ödənilməsinin təmin edilməsi üzrə möhkəm mexanizmlərin mövcud olmaması və s.

Misal gətirək. Tərəflər 13 sentyabr 2014-cü il tarixdə rəsmi nikaha daxil olmuş, həmin birgə nikahdan bir uşaqları olmuşdur. Birinci instansiya məhkəməsinin 21 iyul 2019-cu il tarixli qətnaməsi ilə onların nikahı pozulmuş, uşağa görə atası cavabdehdən ana iddiaçının xeyrinə hər ay 200 manat məbləğində alimentin tutulması qət edilmişdir. Bir müddətdən sonra ana yenidən iddia ərizəsi ilə məhkəməyə müraciət edərək, uşağın saxlanılması üzrə cavabdehin ona heç bir maddi yardım göstərmədiyini qeyd edib, cavabdehdən uşağın saxlanılması üçün aliment tutulmasını xahiş etsə də, birinci instansiya məhkəməsi onun iddia tələbini təmin etməmişdir. İddiaçı apellyasiya şikayəti verərək qətnamənin ləğv olunmasını xahiş etmişdir. Lakin işin apellyasiya instansiyası məhkəməsi tərəfindən müəyyən olunmuş hallarından aydın olmuşdur ki, cavabdeh məhkəmənin qətnaməsi ilə hər ay 200 manat olmaqla tutulması qət olunmuş alimenti uşağın 18 yaşı tamam olana

qədər əvvəlcədən birdəfəlik qaydada ödəmiş və iddiaçı Sumqayıt Şəhəri üzrə İcra İdarəsinə ərizə ilə müraciət edərək alimentin tam ödənilməsini əsas göstərməklə, müvafiq icra sənədi üzrə icraata xitam verilməsini xahiş etmişdir. Ona görə də Sumqayıt şəhəri üzrə İcra İdarəsi 03 mart 2020-ci il tarixli qərar ilə alimentin tam ödənilməsi əsası ilə icra sənədi üzrə icraata xitam vermişdir. Apellyasiya məhkəməsinin mövqeyinə görə, cavabdehdən uşağa görə yenidən alimentin tutulması tələbi aliment öhdəliklərini müəyyən edən qanunun tələblərinə uyğun olmadığından əsassız olmuşdur [9].

Aydındır ki, bəhs edilən mülki işdə iddiaçının tələbinin məhkəmələr tərəfindən təmin edilməməsinin başlıca səbəbi onun əsassızlığı olmuşdur. Belə ki, cavabdeh iş üzrə çıxarılmış məhkəmə qətnaməsinə uyğun olaraq aliment öhdəliyini uşağın yetkinlik yaşına çatmasını gözləmədən, əvvəlcədən tam həcmdə yerinə yetirmişdir. Ona görə də müvafiq icra strukturu alimentin tam ödənilməsi əsası ilə icra sənədi üzrə icraata xitam vermişdir. Azərbaycan Respublikası Ailə Məcəlləsinin 113-cü maddəsi aliment öhdəliklərinin xitam verilməsinə həsr olunmuşdur. Burada məhkəmə qaydasında tutulan alimentin ödənilməsinə xitam verilməsinin bir sıra halları (5 bənd) müəyyən olunmuşdur. Hesab edirik ki, məhkəmə təcrübəsində aliment öhdəliklərinin tam həcmdə yerinə yetirilməsi haqlı olaraq aliment öhdəliklərinə xitam verilməsinin hallarından biri kimi tətbiq olunur. Lakin Ailə Məcəlləsinin 113.2-ci maddəsində bu hal öz əksini tapmamışdır. Məhkəmə təcrübəsinin düzgün mövqeyini nəzərə alaraq, Ailə Məcəlləsinin 113.2-ci maddəsində müəyyən edilmiş halların siyahısına məhkəmə qaydasında tutulan alimentin vaxtından əvvəl tam həcmdə ödənilməsi əlamətinin daxil edilməsini təklif edirik.

Azərbaycan Respublikası Ailə Məcəlləsinin müzakirəsini apardığımız 13-cü fəslində münasibət bildirilməsi zəruri olan normalardan biri də yetkinlik yaşına çatan övladların valideynlərinə görə əlavə xərclərdə iştirakını nəzərdə tutan 83-cü maddədir. Maddənin ümumi məzmunu onun mətn hissəsinin lüzumsuz yerə artıq və təkrar ifadələr ilə yükləndiyini deməyə əsas verir. Belə ki, maddənin əvvəl hissəsində yetkinlik yaşına çatan övladların hansı hallarda valideynlərini saxlamaq öhdəliklərinin əmələ gəlməsi göstərildiyindən, onun son hissəsində yenidən "yetkinlik yaşına çatmış övladlar" və "yuxarıdakı hallarla əlaqədar" ifadələrinin işlədilməsinə ehtiyac qalmır. Yəni, bu ifadələr olmadan da söhbətin müəyyən əsasların mövcud olduğu halda yetkinlik yaşına çatmaya şəxslərə aidliyi aydın olur. Qeyd edilənləri nəzərə alaraq, həmin maddənin son hissəsində istifadə olunmuş "müstəsna hallarda," sözlərindən sonra gələn "yetkinlik yaşına çatmış övladlar" sözlərinin və "məhkəmə qaydasında" sözlərindən sonra gələn "yuxarıdakı hallarla əlaqədar" sözlərinin çıxarılmasını təklif edirik.

## Biblioqrafiya

1. Azərbaycan Respublikası Ali Məhkəməsinin arxivi. İş № 2(102)-26/2010.
2. Azərbaycan Respublikası Ali Məhkəməsinin arxivi / İş № 2(102)-438/2010.
3. Azərbaycan Respublikası Ali Məhkəməsinin arxivi. İş № 2(102)-7311/2019.
4. Azərbaycan Respublikası Ali Məhkəməsinin arxivi. İş № 2(102)-3065/2021.
5. Azərbaycan Respublikası Konstitusiya Məhkəməsi Plenumunun "Azərbaycan Respublikası Ailə Məcəlləsinin 76, 78 və 112-ci maddələrinin şərh edilməsinə dair 27 iyul 2016-cı il tarixli qərarı [Elektron resurs]. URL: https://constcourt.gov.az/az/decisions?key=&page=14

6. Azərbaycan Respublikası Konstitusiya Məhkəməsi Plenumunun "Azərbaycan Respublikası Ailə Məcəlləsinin 80 və 81-ci maddələrinin bəzi müddəalarının şərh edilməsinə dair" 27 yanvar 2015-ci il tarixli qərarı [Elektron resurs]. URL: https://constcourt.gov.az/az/decisions?key=&page=16
7. Dəmirçiyeva M.D. Azərbaycan Respublikasının ailə hüququ. – Bakı: Qanun, 2008. - 488 s.
8. Gəncə Apellyasiya Məhkəməsinin arxivi. İş № 2(104)-828/2020.
9. Gəncə Apellyasiya Məhkəməsinin arxivi. İş 2(104)-3519/2020.
10. Şirvan Apellyasiya Məhkəməsinin arxivi. № 2 (106)-1050/2020.
11. Uşaq hüquqları haqqında Konvensiya [Elektron resurs]. URL: https://migration.gov.az/content/pdf/5acb09f3100d0_U%C5%9Faq%20h%C3%BCquqlar%C4%B1%20haqq%C4%B1nda%20Konvensiya.pdf

**Guluzade S.M.**♦

**DOI: 10.25108/2304-1730-1749.iolr.2022.69.34-49**
**UDC: 347.6**

## Parents and family legislation of Azerbaijan child support obligations

**Abstract**: The duty of parents to take care of children and the duty of able-bodied children who have reached the age of 18 to support their incapacitated parents is defined in the Constitution of the Republic of Azerbaijan. In accordance with these constitutional provisions, Section V of the Family Code of the Republic of Azerbaijan is devoted to "Alimony obligations of family members". In that section, relationships such as alimony obligations of parents and children (Chapter 13), alimony obligations of spouses and ex-spouses (Chapter 14), alimony obligations of other family members (Chapter 15) have found their legal regulation.

This article will consider the maintenance obligations of parents and children. The philosophical and ethical basis for the creation of this type of alimony is considered to be the origin of the child determined by law. Article 43 of the Family Code of the Republic of Azerbaijan states that the rights and duties of parents and children are based on the confirmation of the child's origin. The Family Code also reflects the principles of determining the origin of the child from both the mother and the father (maternity and paternity) (Article 44). Basics of alimony obligations of parents and children the origin of the children is considered to be confirmed by the law.

First, attention was paid to whether the words "child" and "parent" have a legislative meaning. According to Article 1 of the "Convention on the Rights of the Child" adopted at the 44th session of the UN General Assembly (November 20, 1989), every person is considered a child under the age of 18, provided that, according to the law applicable to that child, he or she must be a minor [11]. Neither the Family Code nor the Civil Code of the Republic of Azerbaijan defines the concept of child and parent. However, it is understood from the content of many norms of the Civil

♦ **Guluzade Samra Mubariz -** Doctorate of the "Civil Law" Department of the Baku State University (Azerbaijan). Email: syamraguluzade@outlook.com

Code, especially Article 28, that minors under the age of 18 are considered children with limited capacity to act.

The rights and duties of parents regarding their children should be unified, and this unity differs from the unity of rights and duties of other persons. If the rights of any legal person create a mutual unity with the duties and responsibilities of another person, the rights and duties of parents in relation to their children create such a unity that the rights of parents are also manifested as their rights and duties. In this regard, the rights and duties of parents are called parental rights, and parents are obliged to exercise their parental rights [7, p. 237-238]. Improper exercise of parental rights gives rise to appropriate responsibility for him: deprivation of parental rights (Article 64 of the Family Code); restriction of parental rights (Article 68 of the Family Code); seizure of funds for the maintenance of children in court order (Article 76 of the Family Code). It is the duty of parents to maintain their minor children, adult children who are not able to work, and pay for their expenses and daily needs. Parents should do this without any discrimination between their children.

In 1993, the Republic of Azerbaijan joined the UN Universal Declaration "On ensuring the survival, protection and development of children". According to Article I of Part 18 of the UN Convention on the Rights of the Child, ratified by our Republic on July 21, 1992, the state makes every effort to ensure the recognition of the principle of joint and equal responsibility of both parents for the child's education and development. The primary responsibility for the upbringing and development of the child rests with the parents or legal guardians, as the case may be. The rights and duties of parents are defined in Chapter 12 of the Family Code of the Republic of Azerbaijan. The rights and duties of parents in relation to their children cover various spheres: 1) the field of upbringing and education of children; 2) the field of protection of children's rights and interests. The following forms of parental responsibility are provided for in the family legislation: 1) deprivation of parental rights; 2) restriction of parental rights. However, the legislation does not even exempt parents deprived of parental rights from the duty to provide child support.

**Keywords*:*** family; alimony; alimony obligation; parents; children; adult children; children who are unable to work.

## References

1. Archive of the Supreme Court of the Republic of Azerbaijan. Case No. 2(102)-26/2010 (in Azerbaijani).
2. Archive of the Supreme Court of the Republic of Azerbaijan. Case No. 2(102)-438/2010 (in Azerbaijani).
3. Archive of the Supreme Court of the Republic of Azerbaijan. Case No. 2(102)-7311/2019 (in Azerbaijani).
4. Archive of the Supreme Court of the Republic of Azerbaijan. Case No. 2(102)-3065/2021 (in Azerbaijani).
5. Decision of the Plenum of the Constitutional Court of the Republic of Azerbaijan dated July 27, 2016 on the interpretation of Articles 76, 78 and 112 of the Family Code of the Republic of Azerbaijan. Available at: https://constcourt.gov.az/az/decisions?key=&page=14 (in Azerbaijani).
6. Decision of the Plenum of the Constitutional Court of the Republic of Azerbaijan dated January 27, 2015 on the interpretation of Articles 80 and 81 of the Family Code of the Republic of Azerbaijan. Available at: https://constcourt.gov.az/ az/decisions?key=&page=16 (in Azerbaijani).

7. Damirchiyeva M.D. Family law of the Republic of Azerbaijan. Baku, Qanun Publ., 2008, 488 p. (in Azerbaijani).
8. Ganja Court of Appeal Archive. Case No. 2(104)-828/2020 (in Azerbaijani).
9. Ganja Court of Appeal Archive. Case No.2(104)-3519/2020 (in Azerbaijani).
10. Shirvan Court of Appeal Archive. Case no. (106)-1050/2020 (in Azerbaijani).
11. Convention on the Rights of the Child. Available at: https://migration.gov.az/content/pdf/5acb09f3100d0_U%C5%9Faq%20h%C3%BCquqlar%C4%B1%20haqq%C4%B1nda%20Konvensiya.pdf (in Azerbaijani).

**Гулузаде С.М.**♦

**DOI: 10.25108/2304-1730-1749.iolr.2022.69.34-49**
**УДК: 347.6**

## Алиментные обязательства родителей и детей по семейному законодательству Азербайджанской Республики

**Аннотация**: Конституция Азербайджанской Республики закрепляет обязанности родителей заботиться о детях и содержать нетрудоспособных родителей трудоспособных детями, достигших 18-летнего возраста. В соответствии с этими конституционными положениями раздел V Семейного кодекса Азербайджанской Республики посвящен «Алиментным обязательствам членов семьи». В этом разделе нашли свое правовое регулирование такие отношения, как алиментные обязательства родителей и детей (глава 13), алиментные обязательства супругов и бывших супругов (глава 14), алиментные обязательства других членов семьи (глава 15).

В статье рассматриваются алиментные обязательства родителей и детей. Философско-этической основой возникновения данного вида алиментных обязательств является установленное законом происхождение ребенка. Статья 43 Семейного кодекса Азербайджанской Республики гласит, что права и обязанности родителей и детей основаны на подтверждении происхождения ребенка. Семейный кодекс также отражает принципы определения происхождения ребенка как от матери, так и от отца (материнство и отцовство) (статья 44). Происхождение детей, подтвержденное законом, считается основанием для алиментных обязательств родителей и детей.

Во-первых, было обращено внимание на то, имеют ли слова «ребенок» и «родитель» законодательные понятия. Согласно статье 1 «Конвенции о правах ребенка», принятой на 44-й сессии Генеральной Ассамблеи ООН (20 ноября 1989 г.), ребенком считается каждое лицо до достижения 18-летнего возраста при условии, что согласно по закону, применимому к этому ребенку, он не должен достичь совершеннолетия [11]. Ни Семейный кодекс, ни Гражданский кодекс Азербайджанской Республики не определяют понятия ребенка и родителя. Однако из содержания многих норм ГК, особенно статьи 28, следует, что

♦ **Гулузаде Самра Мубариз кызы -** докторант кафедры «Гражданское право» Бакинского государственного университета (Азербайджан). E-mail: syamraguluzade@outlook.com

несовершеннолетние в возрасте до 18 лет считаются детьми с ограниченной дееспособностью.

Права и обязанности родителей в отношении своих детей должны быть едины, и это единство отличается от единства прав и обязанностей других лиц. Если права одного юридического лица создают взаимное единство с обязанностями и обязанностями другого, то права и обязанности родителей по отношению к своим детям создают такое единство, что права родителей проявляются также как их обязанности и обязанности как их права. В связи с этим права и обязанности родителей называются родительскими правами, а родители обязаны осуществлять свои родительские права [7, с. 237-238]. Ненадлежащее осуществление родительских прав влечет за собой соответствующую ответственность: лишение родительских прав (ст. 64 Семейного кодекса); ограничение родительских прав (ст. 68 Семейного кодекса); взыскание средств на содержание детей по решению суда (ст. 76 Семейного кодекса).

Обязанностью родителей является содержание несовершеннолетних детей, нетрудоспособных совершеннолетних детей, оплата их расходов и повседневных нужд. Родители должны делать это без какой-либо дискриминации между своими детьми.

В 1993 году Азербайджанская Республика присоединилась ко Всеобщей декларации ООН «Об обеспечении выживания, защиты и развития детей». Согласно статье 18, пункту I Конвенции ООН о правах ребенка, ратифицированной нашей Республикой 21 июля 1992 года, государства-участники прилагают все усилия к тому, чтобы воспитание и развитие ребенка оба родителя признавали принцип солидарной и солидарной ответственности за права детей. Основная ответственность за воспитание и развитие ребенка лежит на родителях или законных опекунах, в зависимости от обстоятельств. Права и обязанности родителей определены в главе 12 Семейного кодекса Азербайджанской Республики. Права и обязанности родителей по отношению к своим детям охватывают различные сферы: 1) область воспитания и образования детей; 2) сферы защиты прав и интересов детей. Семейным законодательством предусмотрены следующие формы ответственности родителей: 1) лишение родительских прав; 2) ограничение родительских прав. Однако законодательство не освобождает родителей, лишенных родительских прав, от обязанности выплачивать алименты.

**Ключевые слова:** семья; алименты; алиментные обязательства; родители; дети; совершеннолетние дети; нетрудоспособные дети.

## Библиография

1. Архив Верховного суда Азербайджанской Республики. Дело № 2(102)-26/2010 (на азерб. яз.).
2. Архив Верховного суда Азербайджанской Республики. Дело № 2(102)-438/2010 (на азерб. яз.).
3. Архив Верховного суда Азербайджанской Республики. Дело № 2(102)-7311/2019 (на азерб. яз.).
4. Архив Верховного суда Азербайджанской Республики. Дело № 2(102)-3065/2021 (на азерб. яз.).
5. Постановление Пленума Конституционного Суда Азербайджанской Республики от 27 июля 2016 года о толковании статей 76, 78 и 112 Семейного кодекса Азербайджанской

Республики [Электронный ресурс]. URL: https://constcourt.gov.az/az/decisions?key=&page=14 (на азерб. яз.).

6. Постановление Пленума Конституционного Суда Азербайджанской Республики «О толковании некоторых положений статей 80 и 81 Семейного кодекса Азербайджанской Республики» от 27 января 2015 года. [Электронный ресурс]. URL: https://constcourt.gov.az/az/decisions?key=&page=16 (на азерб. яз.).

7. Дамирчиева М.Д. Семейный кодекс Азербайджанской Республики. – Баку: Ганун, 2008. – 488 с. (на азерб. яз.).

8. Архив Гянджинского апелляционного суда. Дело №2(104)-828/2020 (на азерб. яз.).

9. Архив Гянджинского апелляционного суда. Дело №2(104)-3519/2020 (на азерб. яз.).

10. Архив Ширванского апелляционного суда. Дело № (106)-1050/2020 (на азерб. яз.).

11. Конвенция о правах ребенка [Электронный ресурс]. URL: https://migration.gov.az/content/pdf/5acb09f3100d0_U%C5%9Faq%20h%C3%BCquqlar%C4%B1%20haqq%C4%B1nda%20Konvensiya.pdf (на азерб. яз.).